Konfransda “Sevinciniz uğurumuzdur” adlı sənədli film nümayiş olunub.

“2009-cu ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda geniş məruzə ilə çıxış edən təhsil naziri Misir Mərdanov uşaqların rifahının daha da yaxşılaşdırılması ilə bağlı məsələlərin Azərbaycanda daim diqqət mərkəzində saxlanıldığını, ümummilli liderimiz Heydər Əliyevin uşaqların müdafiəsi sahəsində əsasını qoyduğu ənənələrin Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Nazir son illərdə ölkə iqtisadiyyatının dinamik inkişafı sayəsində uşaq hüquqlarının qorunmasına yönəlmiş proqramların, o cümlədən də “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı”nın uğurla həyata keçirildiyini qeyd edib.

Təhsil Nazirliyinin YUNİCEF-in ekspertləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səhiyyə Nazirliyinin əməkdaşları ilə birlikdə 55 dövlət uşaq müəssisəsində keçirdiyi qiymətləndirmə nəticəsində hazırlanan dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Planın cari ilin aprelində hökumət tərəfindən təsdiq edildiyini söyləyən Misir Mərdanov artıq 9 uşaq müəssisəsinin ümumtəhsil məktəbinə çevrildiyini, hazırda dövlət uşaq müəssisələrindəki 10 054 uşaqdan 3 960 nəfərinin müəssisədə, 6 094 nəfərinin isə ailəsi ilə birgə gecələdiyini bildirib. Nazir deyib ki, övladlarına sərbəst şəkildə qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması məqsədilə yerlərdə həyata keçirilən tədbirlər zamanı Təhsil Nazirliyi yerli və beynəlxalq QHT–lərlə sıx əməkdaşlıq edir, sağlamlıq imkanları məhdud və sosial cəhətdən çətin vəziyyətdə olan ailələrin uşaqlarının rifahının yaxşılaşdırılmasına, onların cəmiyyətə inteqrasiyasına, təhsilə cəlb edilməsinə və asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirir. Risk qrupuna daxil olan sağlamlıq imkanları məhdud uşaqlar üçün Bərdə şəhərindəki internat məktəbin, Sabunçu rayonundakı 11 nömrəli xüsusi internat məktəbin və Suraxanı rayonu 2 nömrəli uşaq evinin nəzdində günərzi qayğı, Əzizbəyov rayonundakı valideyn himayəsindən məhrum uşaqlar üçün Respublika yardımçı internat məktəbin nəzdində isə reabilitasiya–inkişaf mərkəzlərinin yaradıldığını bildirən təhsil naziri yaxın vaxtlarda Göyçay şəhərində və Qaradağ rayonunda yerləşən internat məktəblərin nəzdində də belə mərkəzlərin açılmasının nəzərdə tutulduğunu söyləyib.

Proqramın icrası ilə əlaqədar qarşıda duran daha ciddi vəzifələr, müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi, dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi, onların hüquqlarının qorunması və sosial müdafiəsinin işlək mexanizmlərinin tətbiqi, risk qrupundan olan uşaqlar və ailələr arasında sistemli preventiv tədbirlərin həyata keçirilməsi üçün sosial işçilərin hazırlanması, ailələrə verilmiş uşaqların vəziyyətinin dövri monitorinqinin aparılması mexanizmlərinin yaradılması haqqında söz açan nazir birgə səylərlə bütün bu məsələlərin həllini tapacağına əminliyini ifadə edib.

Milli Məclisin sosial siyasət məsələləri daimi komissiyasnın sədri Hadi Rəcəbli, YUNİSEF-in Azərbaycandakı nümayəndəsi Mark Herevard, Türkiyə Respublikasının Ankara şəhər sosial xidmətlər müdiri Neriman Koca, YUNİSEF-in beynəlxalq eksperti Devid Larter, Avropa Sosial Şəbəkəsindən siyasət və inkişaf üzrə mütəxəssis Dorota Tomalak, YUNİSEF-in Uşaqların müdafiəsi proqramının rəhbəri Munir Məmmədzadə, YUNİSEF-in milli məsləhətçisi Aytəkin Hüseynli, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Natiq Qasımov, Bakı Şəhəri üzrə Baş Səhiyyə İdarəsinin müdiri Leyla Seyidbəyli, Maliyyə Nazirliyinin şöbə müdirinin müavini Vüqar Məcidli, Ədliyyə Nazirliyinin idarə rəisi Faiq Qurbanov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Kamal İmamverdiyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sənubər Əlizadə və “Hər kəs üçün cəmiyyət–Azərbaycan” proqramının direktoru Ramiz Behbudov ölkə başçısı cənab İlham Əliyev tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı”nın əhəmiyyətindən söz açıb, bu sahədə Təhsil Nazirliyinin gördüyü işləri yüksək qiymətləndiriblər. Qeyd olunub ki, Dövlət Proqramının icrası ilə əlaqədar bir sıra yerli və beynəlxalq qurumlar, QHT–lərlə yaradılan səmərəli əməkdaşlıq əlaqələri uğurlu nəticələr verir.

Konfransı Misir Mərdanov yekunlaşdıraraq Dövlət Proqramının həyata keçirilməsində Təhsil Nazirliyi ilə əməkdaşlıq edən müvafiq nazirliklərə, dövlət qurumlarına, yerli və beynəlxalq qeyri–hökumət təşkilatlarına təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb.